

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

25 noyabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 45 (3558)


# GÜCLÜ DÖVLƏT, QƏTİYYƏTLİ LİDER, İŞIQLI GƏLƏCƏK



Vətən müharibəsindəki Zəfərimiz ölkəmizin beynəlxalq nüfuzunu, siyasi çəkisini daha da yüksəldib. Azərbaycan beynəlxalq enerji, tranzit layihələri həyata keçirməklə, nüfuzlu təşkilatların təşəbbüslərinə qoşulmaqla siyasi-iqtisadi dividendlər qazanır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, "Cənub qaz dəhlizi" kimi milyardlarla investisiya yatırılan layihələr, eləcə də tezliklə açılacaq Zəngəzur dəhlizi ölkəmizin nəyə qadir olduğunu sübut edir.

Artıq Azərbaycanın iştirakı olmadan bölgədə hər hansı beynəlxalq layihənin reallaşması qeyri-mümkündür. Şərqdən qərbə, şimaldan cənuba gedən ən qısa yollar Azərbaycandan keçdiyi üçün əksər beynəlxalq layihələr ölkəmizin razılığı əsasında gerçəkləşir.

Ölkəmizin bu mötəbər beynəlxalq statusu dövlət başçısı İlham Əliyevin Prezidentliyi dövründə bir qədər də möhkəmlənib və dövlətimiz dünya miqyasında etibarlı tərəfdaşa çevrilib. Ölkə rəhbərinin diplomatik məharətlə yaratdığı yeni reallıq dünyada birmənalı olaraq qəbul edilir, irəli sürdüyü təşəbbüslər təqdir olunur.

Hazırda pandemiya qlobal problemlərdən biri olaraq qalır və bu məsələdə də Azərbaycan Prezidentinin təklifləri ümumbəşəri bəlaya qarşı effektiv mübarizənin təşkil edilməsində mühüm rol oynayıb. Bu mənada Prezidentin tapşırığı ilə Azərbaycanın Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamənin 2021-ci ilin martında yekdilliklə qəbul olunması tarixi hadisə oldu.

Prezident İlham Əliyev bugünlərdə bir neçə ölkənin ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərin etimadnaməsini qəbul edərkən səfirlərin Azərbaycanın irəli sürdüyü təşəbbüslərə, xüsusilə vaksinlərin ədalətli bölgüsü ilə bağlı mövqeyinə görə minnətdarlıqlarını bildirməsi dövlətimizin başçısı tərəfindən səsləndirilən fikirlərin qlobal çevrədə öz real qarşılığını tapdığını növbəti dəfə təsdiq etdi.

Azərbaycanın etibarlı tərəfdaşlarından birinə çevrilməsi, əldə edilən iqtisadi üstünlük, uzun illər formalaşdırılmış ictimai-siyasi və sosial-iqtisadi bünövrənin yaradılması ilə mümkün olub. Dövlət başçısının yeni inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən çoxşaxəli islahatlar, kompleks tədbirlər sayəsində əldə olunan bütün bu uğurlar onu deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı növbəti illərdə də inkişaf dinamikasını qoruyub saxlayacaq və ölkəmizin yeni hədəflərinə çatmasında təkanverici amil olacaq.

Görülən qabaqlayıcı tədbirlər sayəsində qlobal pandemiyanın mənfi təsirlərindən az itki ilə çıxan Azərbaycanın bu ilin 9 ayının iqtisadi göstəricilərinə nəzər yetirsək, Vətən müharibəsindən sonra quruculuq-bərpa işlərinin geniş vüsət aldığı Qarabağın yenidən dirçəldilməsi üçün iqtisadi gücün, siyasi iradənin mövcud olduğunu görərik.

Xatırladaq ki, hazırda Azərbaycanın strateji valyuta ehtiyatları 53 milyard dollara çatıb. Bunun da ÜDM-ə nisbəti 110 faizdir və xarici dövlət borcunu 6 dəfədən çox üstələyir. Sənayenin inkişafına da xüsusi diqqət yetirilir. Sənaye zonalarına 6,3 milyard manat investisiya qoyuluşu həyata keçirilib. Bu ilin 9 ayında qeyri-neft ixracı 41 faizədək artıb ki, bu, indiyədək müşahidə olunan ən yüksək göstəricidir. Qeyri-neft sənayesi məhsulları ixracı 1,6 dəfə artıb. Sənaye məhsulları ixracının 320 milyon dolları sənaye zonalarının payına düşür ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə çoxdur.

İnamla deyə bilərik ki, bütün bu uğurlarla Prezident İlham Əliyev işıqlı gələcəyimizin də yol xəritəsini müəyyən edib.

## DİN-in NÜMAYƏNDƏ HEYƏTİ İNTERPOL-un SESSİYASINDA İŞTİRAK EDİR




Azərbaycan Respublikasının daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimovun rəhbərliyi ilə İNTERPOL-un Milli Mərkəzi Bürosunun rəisi, polis general-mayoru Əlaslan Ağayev, Büronun şöbə rəisinin müavini, polis polkovniki Hamlet Babayev və DİN-in Türkiyədəki nümayəndəsi, polis polkovniki Elşad Süleymanovdan ibarət nümayəndə heyəti Beynəlxalq Kriminal Polis Təşkilatı - İNTERPOL-un Baş Assambleyasının 2021-ci il 23-25 noyabr tarixlərində Türkiyə Respublikasının İstanbul şəhərində keçirilən 89-cu sessiyasında iştirak edirlər.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyətinin Türkiyənin daxili işlər naziri cənab Süleyman Soylu ilə görüşü olub.

S.Əzimov Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun səmimi salamlarını Türkiyənin daxili işlər naziri Süleyman Soyluya çatdırıb.

Görüşdə qeyd olunub ki, bu gün iki qardaş ölkə arasında olan səmimi dostluq və qardaşlıq münasibətləri Daxili İşlər nazirliklərinin qarşılıqlı fəaliyyətinə çox müsbət zəmin yaradıb.

S.Soylu da onun səmimi salamlarını nazir Vilayət Eyvazova çatdırmağı xahiş edib.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə edilib.

## *Rəsmi xronika*

***Ö**lkəmizin rəhbəri noyabrın 22-də Finlandiya, Uqanda Respublikalarının və Nigeriya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri xanım Kirsti Narinenin, Muhammad Tezikuba Kisambiranın və Yakubu Santuraki Suleymanın etimadnamələrini qəbul edib.*

***A**zərbaycan Prezidenti İlham Əliyev noyabrın 23-də Çili və Filippin Respublikalarının, Kamboca Krallığının, Banqladeş Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri Rodriqo Arkosun, Kim Henq Measın, xanım Maria Elena Alqabrenin, Qousal Azam Sarkerin etimadnamələrini qəbul edib.*

***N**oyabrın 23-də dövlətimizin başçısı Azərbaycan Respublikası vətəndaşlarının 2022-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.*

## DİN-də GÖRÜŞ KEÇİRİLİB



Noyabrın 24-də daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev ilə ölkəmizdə səfərdə olan Avstriya Respublikasının "Frequentis AG" şirkətinin korporativ inkişaf məsələləri üzrə vitse-prezidenti Bernd Novak arasında görüş keçirilib.

Avstriya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bernd Bayerlin və DİN-in Baş İnformasiya-Kommunikasiya İdarəsinin rəisi, polis general-mayoru Dilqəm Aslanovun da iştirak etdiyi görüşdə Daxili İşlər Nazirliyi ilə qeyd olunan şirkət arasında innovativ texnologiyalar sahəsində əməkdaşlıq əlaqələrinin qurulması və tərəfləri maraqlandıran bir sıra digər məsələlər müzakirə edilib.

# ANDINA SADİQ OĞULLAR

**2020-ci ilin sentyabr ayının 27-dən noyabr ayının 9-dək davam edən Vətən müharibəsində Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarından yüzlərlə hərbi qulluqçu ön cəbhədən qazi kimi qayıtdı. Onlardan biri də baş çavuş İlyasov Elmar Şıxlarbəy oğludur.**

O, 15 iyul 1993-cü ildə Bakıda hərbçi ailəsində doğulub. Atası Şıxlarbəy İlyasov Sovet ordusu və Azərbaycan ordusu sıralarında "gizir" hərbi rütbəsində xidmət edərək ehtiyata buraxılıb. Birinci Qarabağ müharibəsinin iştirakçısıdır. Elmardan kiçik qardaşı Ramazan İlyasov 2016-cı ilin Aprel döyüşlərində iştirak edib, hazırda Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusudur.

Ailənin ikinci övladı olan Elmar paytaxtın Sabunçu rayonunun Bakıxanov qəsəbəsindəki 271 saylı tam orta məktəbdə 4-cü sinifədək oxuduqdan sonra orta təhsilini Olimpiya İdman Liseyində davam etdirib.

Kiçik yaşlarından cüdo idman növü ilə məşğul olmağa başlayıb. O, 2011-ci ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların Bakı şəhərinin Nərimanov rayonunda yerləşən "N" saylı hərbi hissəsində ilkin təlim dövrünü keçib. Sonra Qoşunların Zaqatala rayonundakı "N" saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda snayper vəzifəsində xidmət edib.



Həqiqi hərbi xidmət borcunu vicdanla yerinə yetirdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmətdə qalmağa qərar verib. Beləliklə, atasının yolunu davam etdirməyi, həyatını hərbi xidmətə bağlamağı özü üçün başlıca məqsəd kimi qətiləşdirib.

2013-cü ilin aprel ayının 16-dan etibarən Qoşunların qeyd edilən hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. Bu hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun yarımqrupunda qumbaraatan köməkçisi, xüsusi həmlə qrupunda atıcı-radiotelefonçu vəzifələrində xidmət edib. 2015-ci ilin oktyabr ayının 7-də isə Hacıqabul rayonunda yerləşən "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri vəzifəsinə irəli çəkilib.

Elmar xüsusi təyinatlı üçün şərəfli olan zoğalı beret daşıma hüququnu da qazanıb.

2017-ci ilin fevral-may aylarında Türkiyə Respublikasına ezam edilən hərbi qulluqçumuz Jandarm Baş Komandanlığının Foça Jandarm Komando Məktəbləri və Təlim Mərkəzi Komandanlığında komando təməl kursunu uğurla bitirib. Həmçinin, Foça Dalğıc Mərkəzində Türkiyə Sualtı İdman Federasiyasının təşkil etdiyi təlim proqramı üzrə aidiyyəti kurs keçib.

Vətən müharibəsi silahdaşları ilə birgə onun da hərbçi həyatının ən çətin və şərəfli sınağı oldu. Həmin vaxt xidmət etdiyi "N" saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin şəxsi heyətinin tərkibində ön cəbhəyə göndərildi: "Bizi öncə Qoşunların Bərdə rayonundakı "N" saylı hərbi hissəsində yerləşdirdilər. Burada bizə xüsusi tapşırıqlar verildi. Ötən ilin oktyabr ayının əvvəlində Füzuli rayonu ərazisinə gəlib, Qaraxanbəyli kəndi yaxınlığındakı mövqelərin müdafiəsində dayandıq. Komandiri olduğum qrupun ilk tapşırıqları müdafiə mövqelərinin möhkəmləndirilməsi, düşmənin bu istiqamətdə mümkün hücumunun qarşısının alınması idi. Bir neçə gün sonra Cəbrayıl rayonu ərazisinin dərinliyinə doğru hərəkət etdik. İşğaldan azad edilən Cəbrayılın mərkəzi



və ətraf ərazilərin müdafiəsi, işğalçıların diversiya-kəşfiyyat qruplarının bu zonaya daxil olmasının qarşısının alınması, nəzarətə götürülən və hərbi nöqteyi-nəzərdən vacib obyektlərin mühafizəsi tapşırıqlarını yerinə yetirdik. Sonra yenidən Füzuli rayonu istiqamətində hərəkət edib, nəhayət, Xocavənd rayonunun Hadrut qəsəbəsində xüsusi təyinatlılardan ibarət qruplarla cəmləşdik. Burada qrupların yenidən komplektləşdirilməsi və tərkibinin dəyişdirilməsi həyata keçirildi. Komandiri olduğum qrup mayor Elman İslamovun tabeliyinə verildi. Lazımi hazırlıq görüldükdən sonra xüsusi təyinatlılardan ibarət qruplar Şuşa istiqamətində hərəkətə başladılar. Xocavənd rayonunun mürəkkəb relyefə malik ərazisi ilə, qrunt yollarla hərbi avtomobil karvanı ilə yola düşdük. Müəyyən edilmiş əraziyədək karvanın hərəkəti zamanı bir neçə dəfə düşmən artilleriyasının atəşinə məruz qaldıq. Həmin anlarda avtomobillərdən düşərək mövqeləndik. Ancaq karvanın hərəkəti zamanı canlı qüvvə sarıdan itkilərimiz oldu"...

2020-ci il noyabrın 1-də Elmar sol qolundan yaralanıb. Hərbi hospitala təxliyyə edilib. Aldığı yaralardan və sol qolunun bir neçə saat jqutla bağlanmış vəziyyətdə qalmasından həmin nahiyənin amputasiya təhlükəsi olub. Xoşbəxtlikdən həkimlər bunun qarşısını alıblar.

Hazırda yarası ilə əlaqədar hərbi xidmətdən tərxis olunub.

"N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi, Vətən müharibəsi iştirakçısı mayor Elman İslamov baş çavuş E.İlyasovu hərbi xidmət dövründə və müharibə zamanı peşəkar xüsusi təyinatlı, cəsur döyüşçü kimi xarakterizə edir.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 29.12.2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş E.İlyasov "Şuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# Xilaskarlara qoşulaq...

Məsum, saf, yalandan-riyadan uzaq olduqlarına görə, adətən, uşaqları mələklərlə müqayisə edirik. Ancaq bəzən bu qanadsız mələkləri həyatmı, talemi, bəlkə valideynlərimi küçələrə salır və günahları da elə özləri kimi küçələrdə böyüyür... Polis isə bu uşaqları küçə həyatından qoparmağa, qorumağa çalışır ki, günahları özlərindən böyük olmasın.

"Könüldə Nur" İctimai Birliyinin küçədə qalan, baxımsız uşaqlarla bağlı həyata keçirdiyi layihə çərçivəsində polis əməkdaşları daha bir uşağı Birliyin "Sevgi evi" adlı sığınacağına yerləşdiriblər.

**Xətai RPİ Yetkinlik Yaşına Çatmayanlarla Profilaktik İşin Təşkili Bölməsinin rəisi, polis mayoru Fərid Rəhimov** qəzetimizə bildirib ki, noyabrın 21-də axşam saatlarında NZS qəsəbəsində 5 yaşlı oğlan uşağının küçədə qalması barədə məlumat alan kimi, onun yerini müəyyən edib sığınacağa aparıblar.

Arif adlı uşaq adından başqa polisə heç bir söz deməsə də həmkarlarımız onun dilləndirildiyini güman edirlər. Uşağın yaxınlarının tapılması istiqamətində

KÖNÜLDƏ NUR
Xeyriyyə Cəmiyyəti

araşdırmalar aparıldığını deyən bölmə rəisinin sözlərinə görə, əgər valideynləri tapılmasa onun dövlətin himayəsinə verilməsi üçün müraciət ediləcək.

Birliyin sədri Könül Qasımova da: "Küçə uşaqlarına sahib çıxmaq üçün başlatdığımız layihədə polislə əməkdaşlıq artıq öz bəhrəsini verir. Polisin köməyi ilə sığınacağa yerləşdirilən baxımsız vəziyyətdə olan uşaqlara isti yemək, paltar, rahat yataq və ən əsası da sevgi bəxş etməyə çalışırıq. Arifə gəlincə, o, artıq bütün lazımi şəraitlə təmin olunub və valideynlərinin tapılması üçün polisin apardığı araşdırmaların nəticəsini gözləyirik",-deyə bildirib.

Birliyin sədri havaların soyuması ilə küçə həyatı bir qədər də məşəqqətli olan belə uşaqları sığınacağa yerləşdirmək üçün şəhər sakinlərini onlara və polisə kömək etməyə də çağırıb. O, deyib ki, küçədə baxımsız vəziyyətdə olan, dilləndirilən kimsəsiz uşaqları görən istənilən şəxs uşağın şəklini, videosunu, olduğu ünvanı (location) **Birliyin (+99455) 755-03-08 və (+99499) 855-03-08 mobil nömrələrinə göndərməklə, xilaskara çevrilə bilər.**

*"Polis"*

# TƏRTƏRDƏ QANVERMƏ AKSİYASI KEÇİRİLİB

**Milli Hematologiya və Transfuziologiya Mərkəzi - Qan Bankı bölməsinin təşkilatçılığı ilə Tərtər rayonunda qanvermə aksiyası keçirilib.**

Aksiyada Rayon Polis Şöbəsinin əməkdaşları da könüllü olaraq iştirak ediblər.

Toplanan qan laboratoriya müayinəsindən keçirildikdən sonra aidiyyəti üzrə təhvil veriləcək və qan xəstəliklərindən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaq.



*Aslan Qiyaslı*

# ETİMADI BELƏ DOĞRULDURLAR...

## Polis Akademiyasının zəka sahibləri ümumrespublika bilik yarışında ikinci oldular

**Heydər Əliyev Mərkəzinin və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan tarixi" mövzusunda VII ümumrespublika bilik yarışı keçirilib.**

Müsabiqədə Polis Akademiyasının IV-V kursun kursantları - Rəhman Cahangirov, İlkin Ələkbərov, Rüstəm Mejdunov, Elşad Babayev, Süleyman Süleymanov və Muhammed Nəsiblidən ibarət komanda da daxil olmaqla 48 ali təhsil ocağının nümayəndələri mübarizə aparıb.



2014-cü ildən ənənəvi təşkil edilən bilik yarışı gənclərin Azərbaycan tarixinə dair biliklərinin dərinləşdirilməsi, intellekt vərdişlərinin inkişafı məqsədi daşıyır. Builki viktorina, eyni zamanda, Vətən müharibəsinə, o cümlədən şanlı Zəfər tarixinə həsr olunub.

"Regional İnkişaf" İctimai Birliyi könüllülərinin dəstəyi ilə baş tutan bilik yarışında komandalar əvvəlcədən onlara təqdim olunan mövzular ətrafında hər turda 12 sual olmaqla üç mərhələdə yarışıblar. Ümummilli liderin irsini, həyat və fəaliyyətini, habelə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə olunan şanlı qələbəni əhatəliyən sualları daha tez və dolğun cavablandıran üç komanda bilik yarışının qalibi elan olunub. Münsiflər heyəti tərəfindən ümumi qiymətləndirmənin nəticələrinə görə Polis Akademiyasının zəka sahibləri II yeri tutub.





Təşkilatçılar qalibləri mükafatlandırıb və onlara iştirakçı sertifikatı təqdim ediblər.

***Bilik yarışında II yerə layiq görülmələri münasibətilə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov komandamızın üzvlərini, eyni zamanda müsabiqəyə hazırlıq prosesini həyata keçirən professor-müəllim heyətini mükafatlandırıb.***

Polis Akademiyasının rəisi, polis polkovniki Canpolad Daanovun müvafiq əmri ilə kursantlar - Rüstəm Mejdunova və Elşad Babayevə isə polis kiçik serjantı xüsusi rütbəsi verilib.

Komanda üzvləri onlara göstərilən diqqət və qayğıya, verilən yüksək qiymətə görə DİN, eləcə də Akademiyanın rəhbərliyinə minnətdarlıqlarını bildirib, gələcəkdə də uğurlu fəaliyyətləri ilə etimadı doğruldacaqlarını əminliklə ifadə ediblər.

*Teymur Əlizadə,*
*polis mayoru*

# SAĞLAM HƏYAT DƏRSLƏRİ

***Narkomaniya ilə mübarizə çərçivəsində təhsil müəssisələrində profilaktik tədbirlər keçirən polis əməkdaşları ölkə ərazisində gənclərlə maarifləndirici görüşləri davam etdirirlər.***





**Polis məktəblilərə dəyərli tövsiyələr verir**





**Bakı şəhər BPİ-nin** təşkilatçılığı ilə narkomaniya və zorakılıq əleyhinə yönələn tədbirlər paytaxtın 229, 257 nömrəli tam orta məktəblərində və Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində keçirilib.

**Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Əkbərova** "Polis"ə bildirib ki, tədbirlərə yerli polis idarəsinin əməkdaşları, polis veteranları, rayon icra hakimiyyətlərinin nümayəndələri, Uşaq qaynar xətt xidmətinin işçiləri və QHT təmsilçiləri də qatılıb.

Polis əməkdaşları əsasən yuxarı sinif şagirdlərindən ibarət auditoriyalarda narkomaniya və onun qorxulu nəticələrindən, zərərli vərdişlərdən, məişət zorakılığından, internetdən təhlükəsiz istifadə qaydalarından, dini radikalizm kimi vacib mövzulardan bəhs edib, birgə mübarizənin önəminə diqqət çəkiblər. Şagirdlər də mövzularla bağlı səhnəciklərlə çıxış edib, hazırladıqları videoçarxları nümayiş etdiriblər.

**Bərdə Rayon Polis Şöbəsinin** təşkilatçılığı ilə akademik Zərifə Əliyeva adına məktəbdə "Gənclər narkomaniyaya yox deyir", "Erkən nikah və onun fəsadları" və "Dini radikalizmə qarşı birgə mübarizə" mövzularında maarifləndirmə tədbiri keçirilib.

Tədbirdə çıxış edən RPŞ-nin rəisi, polis polkovniki Muradəli Babayev müasir dövrümüzün bəlası olan narkomaniyanın bəşəriyyətə vurduğu mənəvi və maddi zərərlərdən söz açıb, bu bəlanın qurbanına çevrilən insanların sağlam həyata qayıtmasının çox çətin olduğunu vurğulayıb. Gənclərin bu bəlaya qurşanmaması üçün polis əməkdaşlarının narkomaniyaya qarşı apardığı genişmiqyaslı əməliyyat tədbirlərindən bəhs edən rəis, həmçinin maarifləndirici tədbirlərin mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib.

**Göygöl Rayon Polis Şöbəsinin** təşkilatçılığı ilə rayonun 6 saylı tam orta məktəbində "Narkomaniyaya yox deyək!", "Erkən nikah və onun fəsadları", "Dini radikalizmə qarşı mübarizə zamanın çağırışıdır" və "Uşaqlar və yol hərəkəti təhlükəsizliyi" mövzularında tədbir keçirilib. RPŞ rəisinin şəxsi heyət üzrə köməkçisi, polis polkovnik-leytenantı Abbas Paşa belə maarifləndirici tədbirlərin əhəmiyyətindən söz açıb, şagirdlərə daim Vətəninin sabahını düşünən layiqli vətəndaş kimi böyümələrilə bağlı tövsiyələr verib.

Yetkinlik Yaşına Çatmayanlarla Profilaktiki İşin Təşkili qrupunun baş inspektoru, polis kapitanı Vüqar Məmmədov narkomaniyanın fəsadlarından, ölkəmizdə narkomaniyaya qarşı aparılan mübarizədən, Dövlət Yol Polisi Bölməsinin rəisi, polis mayoru Azər Ələkbərov isə uşaqların yollarda arzuolunmaz hadisələrlə üzləşməsinin qarşısının alınmasından danışıb.

**Salyan rayonunun 2 saylı tam orta məktəbində** "Narkomaniyaya yox deyək!" adlı maarifləndirici tədbirdə RPŞ-nin rəisi, polis polkovniki Nəzər Əsgərov çıxış edib. O, dövrümüzün ağır bəlasına çevrilən narkomaniyanın



insan sağlamlığı üçün yaratdığı təhlükələrdən, eləcə də mənəvi aşınmadan və digər fəsadlarından, ölkəmizdə narkomanlığa qarşı aparılan mübarizədən danışıb.

Sonra çıxış edənlər azyaşlıların erkən nikaha daxil olmaları barədə söz açaraq, bu cür halların gənc ailələrdə yaratdığı problemlərdən bəhs ediblər.

Qeyd edək ki, narkomaniya ilə mübarizə çərçivəsində analoji tədbirlər şəhər-rayon polis şöbələrinin təşkilatçılığı ilə **Mingəçevir, Goranboy, Yardımlı, Lənkəran, Quba, Biləsuvar, Masallı, Balakən və Saatlı** rayonlarındakı məktəblərdə də keçirilib.

*"Polis"*

# BİZƏ YAZIRLAR...

## Polisin fəaliyyəti rəğbət doğurur

**Dövlətin əsas sütunlarından biri kimi Azərbaycan Polisi gecəli-gündüzlü xidmət aparmaqla, cinayətkarlıqla qətiyyətli mübarizə ilə yanaşı, sosial şəbəkələrdə də fəaliyyətini günün tələblərinə uyğun qurub. Hər gün DİN-in sosial şəbəkələrinə vətəndaşlar tərəfindən çoxlu sayda rəy yazılır, müraciət, sual və təşəkkür ünvanlanır.**

**Bakı şəhər sakini Anar Qasımov** etdiyi müraciətə operativ reaksiya verildiyinə, probleminin Nərimanov Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən obyektiv araşdırılaraq qısa müddətdə həll edildiyinə görə təşəkkürünü bildirir.

**Paytaxt sakini İlqar Süleymanov** yazır: "İtirdiyim 4200 manatın tapılacağına heç ümidim yox idi. Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşlarının operativliyi sayəsində pulum tez bir zamanda tapılıb mənə təhvil verildi".

**Bakı şəhəri Binəqədi rayonundan bir qrup sakin** Azərbaycan Polisinin narkotiklərin qanunsuz dövriyyəsinə qarşı apardığı qətiyyətli mübarizə tədbirlərinə görə DİN rəhbərliyinə təşəkkürlərini bildirirlər.

**Nəsimi rayonundan da bir qrup sakin** Daxili İşlər Nazirliyinə təşəkkür məktubu ünvanlayıb. Məktubda qeyd olunur ki, bir müddət əvvəl sakinlərin üzləşdikləri problemlə əlaqədar 22-ci Polis Şöbəsinə müraciət etdikdən sonra polisin səlahiyyətinə aid olmasa da dərhal aidiyyəti qurumlarla əlaqə saxlayan qanun keşikçiləri məsələnin həllinə nail olmuşlar.

**Paytaxt sakini Samirə Hacımuradova** ona məxsus bank kartından 2050 manatın oğurlanması ilə bağlı müraciətinə operativ və obyektiv şəkildə baxdıqlarına və ona dəymiş ziyanın ödətdirilməsində göstərdikləri köməkliyə görə Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını ifadə edir.

**Sumqayıt şəhər sakini Sərvər Əhmədov** övladına məxsus mobil telefonun oğurlanması ilə bağlı müraciətinə Sumqayıt ŞRPİ-nin əməkdaşları tərəfindən dərhal reaksiya verildiyinə və telefonunun tapılmasında göstərdikləri köməkliyə görə minnətdarlığını bildirir.

**Bakı şəhər sakini Şəfəq Məmmədova** ailədaxili problemlə əlaqədar etdiyi müraciətə son dərəcə həssaslıqla yanaşılaraq qısa zaman ərzində müsbət həllini tapmasında göstərdikləri köməkliyə görə Azərbaycan Polisinə təşəkkürünü ifadə edir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# KURSANTLARIN TƏLİMİ

## Əməliyyat-taktiki təlimdə kursantların bacarığı yoxlanılıb



**DİN-in Polis Akademiyasında təşkil edilən Əməliyyat-taktiki simulyasiya təlimlərində V kurs kursantları öz bilik və bacarıqlarını yoxlayıblar. Noyabrın 18-də başlayan təlim 3 gün davam edib.**



Müxtəlif cinayət faktları üzrə modelləşdirilmiş vəziyyətlərdə kursant və dinləyicilərin ixtisas fənləri üzrə əldə etdikləri bilikləri möhkəmləndirmək, peşə vərdişi və bacarıqlarının formalaşdırılması məqsədilə keçirilən təlimdə naməlum şəraitdə baş verən cinayətlər üzrə ilkin yoxlama tədbirləri, cinayət işinin başlanması, istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi sahəsində kursantların bacarıqları yoxlanılıb.

Prosesin səmərəliliyi məqsədilə Tədris-metodiki şöbə, "DİO-nun ƏAF", "Kriminalistika", "Cinayət prosesi", "Cinayət hüququ" və "DİO-nun inzibati fəaliyyət" kafedralarının əməkdaşlarından ibarət qərargah yaradılıb.

Təlim əsasən kriminalistik təlim meydançasında, Akademiya ərazisində, RPİ-nin yerləşdiyi otaqlarda keçirilib. Şərti olaraq RPİ-nin rəhbərliyi şəxsi heyətə tapşırıqlar verərək icrasının yoxlanılması, cinayət-axtarış və istintaq aparatlarının rəislərinin, müstəntiq və əməliyyat müvəkkillərinin cinayətlə əlaqədar həyata keçirdikləri tədbirlər və onların nəticələrinin rəsmiləşdirilməsi vəziyyətini yoxlayıb. Təlimin sonunda bütün nəticələr təhlil olunub, oyun qrupları tərəfindən təqdim olunan cinayət və əməliyyat-axtarış işlərinin materialları yoxlanılaraq qiymətləndirilib.

Akademiyada bu növ təlimlərin mütəmadi keçirilməsi ilə müasir təlim-tədris metodlarının tətbiqi nəzərdə tutulur.

*"Polis"*

# XOCAVƏNDDƏ SİLAH-SURSAT AŞKAR EDİLİB

**İşğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları tərəfindən silah-sursatların aşkar edilməsi məqsədilə profilaktiki tədbirlər davam etdirilir.**



DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları rayon ərazisində keçirdikləri növbəti nəzarət-profilaktiki tədbirlər nəticəsində erməni hərbi birləşmələrinin tərk etdiyi mövqelərdən müxtəlif silah-sursat aşkar ediblər. Polis əməkdaşları 4 avtomat, 1 pulemyot, 1 "Foqot", 4 qumbaraatan mərmisi, 2 minaatan mərmisi, 4 alışdırıcı, 5 sandıq, 2 mobil telefon, 2515 müxtəlif çaplı patronlar və digər döyüş sursatı götürərək aidiyyəti üzrə təhvil veriblər.

# Koronavirus xəstələri saxlanılıb

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət–profilaktik tədbirləri davam etdirirlər.

Noyabrın 17-dən 23-dək olan müddətdə polis əməkdaşları tərəfindən respublika ərazisində 14 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 1 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1-ci (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

*Natiq Cavadov*

# TURAN adına döyüşdülər...






Bugünlərdə Bursa şəhərində "Alpaqut" Turan Döyüş sənəti üzrə Avrasiya çempionatı keçirilib. Ümumilikdə çempionatda 10 ölkədən 250 idmançı iştirak edib.

Türkiyə, İraq, İran, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Pakistan, Banqladeş və Əfqanıstan yığma komandaları birincilik uğrunda yarışıblar.

Komandamızın üzvü, DİN-in Polis Akademiyasının Fiziki hazırlıq kafedrasının müəllimi, polis baş leytenantı Natiq Eminov "Batur" sistemində rəqiblərinə aman verməyib. Onun yetirmələri Lənkəran ŞRPŞ İTB-nin sahə rəisi, polis leytenantı Emil Nuruzadə "Batur" sistemində II, Xətai RPİ 35-ci PB-nin əməkdaşları, polis leytenantları Qalib Kərimli "Caymaz" sistemi üzrə I, Yəhya Çerpanov isə "Ayça" sistemində II yerin sahibi olublar.

"Kaçut" (silahsız özünümüdafiə) sistemi üzrə komandamız 2-ci yerdə qərarlaşıb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# İşğaldan azad edilmiş ərazilərə hələlik səfər etmək təhlükəlidir




**Daxili İşlər Nazirliyi sosial şəbəkələrdəki rəsmi səhifələrində, eləcə də müxtəlif xəbər saytlarında işğaldan azad olunmuş ərazilərdəki mina təhlükəsi ilə bağlı müvafiq icazəsi olmayan vətəndaşların həmin bölgələrə qanunsuz səfərlər etməmələri barədə xəbərdarlıq edir, bu işdə hər kəsi daha diqqətli və məsuliyyətli olmağa çağırır. Əfsuslar olsun ki, bəzi məsuliyyətsiz vətəndaşların düşünülməmiş hərəkətləri özü ilə yanaşı, digər şəxslərin də həyat və sağlamlığını təhlükə altına atır.**

Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayonun işğaldan azad edilmiş ərazilərində növbəti nəzarət-profilaktiki tədbirlər zamanı Binə kəndi ərazisindəki stasionar postda "VAZ" markalı avtomobil saxlanılıb.

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, yoxlamalar zamanı sürücü Ələsgər Mahmudovun və sərnişini Şəmistan Süleymanovun müvafiq icazələrinin olmadığı müəyyən edilib.

Həmçinin, nəqliyyat vasitəsinə baxış keçirilib, yük yerindən avtomobil ehtiyat hissəsi və məişət əşyaları aşkar edilib.

RPŞ əməkdaşları davam etdirilən tədbirlərlə daha bir "Mersedes" markalı avtomobili Böyük Tağlar kəndi ərazisindəki stasionar postda saxlayıblar. Müəyyən edilib ki, avtomobilin sürücüsü, Ağdaş rayon sakini Dilən Kazımovun işğaldan azad edilmiş ərazilərdə işləməsi üçün müvafiq icazəsi var, lakin avtomobildə olan digər şəxs, Bərdə rayon sakini Bəhruz Əliyevin isə icazəsi yoxdur.

Avtomobilə baxış zamanı yük yerindən, mühərrik hissəsindən, habelə salonundan 80 kiloqrama yaxın müxtəlif metal məmulatları aşkar olunub.

Hər iki faktla bağlı Xocavənd RPŞ-də araşdırmalar aparılır.

# Ağdam sursatlardan təmizlənir




Vətən müharibəsində düşmən ordusu darmadağın edildi və noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur oldu. Düşmən qüvvələrinin qalıqları noyabrın 20-də Ağdam rayonunun işğal olunmuş ərazisini tərk etdilər. Ağdam da yenidən azadlığına qovuşdu.

Dövlətimiz Ağdamı və digər işğaldan azad olunmuş rayonlarımızı dirçəltmək naminə bütün imkanlarını səfərbər edib. Azərbaycan əsgəri ilə birlikdə görülən işlərin sürətləndirilməsi üçün Azərbaycan Polisi də gecəli-gündüzlü keşikdədir.

İşğaldan azad olunmuş digər rayonlarda olduğu kimi, Ağdam Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən mina və partlayıcı vasitələrin səbəb olduğu təhlükəni nəzərə alaraq, yaradılan postlar həm də ərazilərə qanunsuz səfərlərin qarşısını almaq məqsədi daşıyır.

Aparılan nəzarət-profilaktiki tədbirlər nəticəsində düşmən ordusunun tərk etdiyi hərbi mövqelərdən qumbaraatan, 72 qumbaraatan mərmisi, 3 Qrad mərmisi, 2 fosforlu mərmi, 2 tank əleyhinə mina, 9 əl qumbarası və alışdırıcısı, 2 rabitə vasitəsi, eləcə də 6 minə yaxın müxtəlif çaplı patronlar aşkar edilərək təhvil verilib. Eyni zamanda, ümumi çəkisi 3,3 tondan artıq 5574 ədəd yabanı halda bitmiş çətənə bitkisi yığılaraq məhv edilib.

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*

**Yasamal RPİ 29-cu PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində noyabrın 15-də Bakı şəhər sakini N.Ələkbərovu bıçaqla hədələyib quldurluq yolu ilə mobil telefonunu talamaqda şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş İ.Məmmədov saxlanılmışdır.

◆◆◆

**Şirvan Şəhər Polis Şöbəsinə** cari ilin sentyabr-noyabr ayları ərzində şəhər ərazisində yerləşən səkkiz fərdi təsərrüfatdan 12 baş iribuynuzlu heyvanın oğurlanması barədə müraciətlər daxil olub. Hesablamalara görə zərərçəkmişlərə 10.000 manatdan çox maddi ziyan dəyib.

ŞPŞ-nin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Fərid və Əhmədağa Hüseynov qardaşları saxlanılıblar.

Dindirilmə zamanı hər iki şəxs törətdikləri cinayət əməlini etiraf edərək, oğurladıqları heyvanları dəyərindən ucuz qiymətə satdıqlarını bildiriblər.

Faktlarla bağlı Şirvan ŞPŞ-nin İstintaq Bölməsində cinayət işi açılıb, onların başqa oğurluq hadisələrində iştirak edib-etmədikləri araşdırılır.

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

◆◆◆

**Lənkəran ŞRPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş R.Əliyev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 108 qramdan artıq heroin, 92 qramdan artıq metamfetamin və elektron tərəzi aşkar edilərək götürülmüşdür.

Ətrafında aparılmış tədbirlərlə onun rayon ərazisindəki 2 evdən pul və televizor, 1 həyətdən isə 500 manat dəyərində inşaat materialları oğurlaması da müəyyən edilmişdir.

◆◆◆

Noyabrın 23-də Ucar rayon sakinləri S.Qasımov, Ə.Abdurəhmanov və oğlu R.Abdurəhmanov Zərdab rayonunun Məlikumudlu kəndi ərazisində qanunsuz ov etdikləri üçün həmin ərazidə xidmət aparan **Zərdab RPŞ**-nin əməkdaşları tərəfindən şöbəyə dəvət edilərkən R.Abdurəhmanov tüfəngin qundağı ilə polis əməkdaşının əl nahiyəsinə xəsarət yetirmiş və tüfəngdən atəş açaraq qaçmışlar.

Görülmüş tədbirlərlə onlar tutulmuşlar.

Polis əməkdaşları tərəfindən hadisə yerindən müvafiq sənədləri olmayan "TOZ-16" markalı ov tüfəngi, 11 ədəd patron və patrondaş götürülmüşdür.

# VAKSİNASİYA DAVAM ETDİRİLİR

**Koronavirus pandemiyası ilə mübarizə aparan ölkəmizdə artıq iki ildir ki, virusun yayılmaması üçün qabaqlayıcı tədbirlər görülür. Məhz görülən qabaqlayıcı və hərtərəfli tədbirlər sayəsində insanlarımızın həyatı xilas olunur, onlar öz sağlıqlarına yenidən qovuşurlar.**





"Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq peyvəndlənmə prosesinə əhali ilə birbaşa təmasda olan dövlət qurumlarının nümayəndələri də cəlb olunub. Qeyd edək ki, artıq digər strukturlarda olduğu kimi daxili işlər orqanlarında da virus əleyhinə 3-cü dozanın vaksinasiyasına başlanılıb. DİN-nin 1 və 2 saylı poliklinikalarında, o cümlədən A.Heydərov adına Respublika Hospitalında və yerlərdə bu işlər uğurla davam etdirilir. Vaksinasiya prosesi ayrılan xüsusi peyvənd və nəzarət otağında aparılır. Həkim briqadaları tərəfindən əməkdaşların qan təzyiqi, bədənin hərarəti yoxlanıldıqdan sonra peyvəndin üçüncü dozası vurulur.

Statistikaya görə paytaxtımızda və yerlərdə artıq 7475 DİO əməkdaşına 3-cü doza vaksinin vurulması təmin edilib.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Toylarda monitorinq



17-23 noyabr tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 2351 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 2268 şadlıq sarayında, 83 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 91 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;
- 1 faktla bağlı Cinayət Məcəlləsinin 139-1.1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb;
- 1379 nəfər "COVID-19" pasportu olmadığına görə şənliyə buraxılmayıb.

*Natiq Cavadov*

# ELAN

***Xətai RPİ PPXB-nin polis nəfəri, polis serjantı Ziyadlı Fərid Vüqar oğluna məxsus xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

## Noyabr ayının 17-dən 23-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 258 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 59 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 433, o cümlədən borclu şəxs qismində axtarışda olan 355 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 17 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 17 nəfər ölmüş, 2 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 140 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik